**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**28 SENTYABR 2022-Cİ İL**

# QƏRAR EŞ №185

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C. MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 40 üzvündən 35 üzvü

## E Ş İ D İ L D İ:

***Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin rəhbəri dos. Fariz Əhmədov***

*Qaydalara dəyişiklik edilməsi haqqında*

## Q Ə R A R A A L I N D I:

UNEC Elmi Şurasının 10 dekabr 2021-ci il tarixli 181 saylı qərarı ilə təsdiq edilmiş “Elmi plagiat hallarına qarşı mübarizə” Qaydaları son əlavə və dəyişiklərlə təsdiq edilsin.

*Qoşma: Əsasnamə qərara əlavə olunur*

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Dövlət İqtisad**

**Universitetinin rektoru, professor**

**Ə.C.Muradov**

# "ELMİ PLAGİAT HALLARINA QARŞI MÜBARİZƏ

# Q A Y D A L A R I

*(ən son əlavə və dəyişikliklərlə*

*_28_ _sentyabr_ 2022-ci il protokol№_185_)*

***UNEC Elmi Şurasının 10 dekabr 2021-ci il***

***tarixli 181 saylı qərarı ilə təsdiq edilmişdir.***

**Elmi plagiat hallarına qarşı mübarizə**
**QAYDALARI**

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Qanunlarının, Azərbaycan Respublikasının Prezidentinin 11 iyun 2019-cu il tarixli 728 saylı Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə" və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin, Azərbaycan Respublikasının bu sahədə qoşulduğu beynəlxalq sazişlərin və digər aidiyyəti normativ-hüquqi aktların aidiyyəti müddəaları əsasında hazırlanmışdır.

1.2. Qaydaların əsas məqsədi UNEC-də elmi işlərin və tədris vəsaitlərinin orijinallığının təmin edilməsi və onların hazırlanmasında elmi plagiat hallarının qarşısının alınması prosedurlarını müəyyən etməkdən ibarətdir.

1.3. Qaydalar elmi işlərin və tədris vəsaitlərinin orijinallıq dərəcəsinin və elmi plagiat hallarının aşkar edilməsi, eləcə də həmin halların aradan qaldırılması prosedurlarını və elmi plagiat hallarına görə məsuliyyət dərəcəsini müəyyən edir.

1.4. Qaydalarda istifadə olunan əsas anlayışlar:

1.4.1. İş – tələbə işləri (kurs işləri, referatlar, sərbəst işlər, laboratoriya işləri, layihələr və bu tipli başqa tapşırıqlar, buraxılış işi, magistr dissertasiyası), fəlsəfə və elmlər doktoru dissertasiyası, monoqrafiya, məqalə, tədris vəsaitləri (tədris proqramı, dərslik, dərs vəsaiti, metodiki göstəriş və s.) və digərləri;

1.4.2. Elmi plagiat halı – işdə müəllifinə və mənbəyinə istinad edilmədən digər müəlliflərin əsərlərindən istifadə halı.

1.4.3. Proqram təminatı ilə plagiat yoxlaması (bundan sonra – plagiat yoxlaması) – işin elektron versiyasında (Word faylında) UNEC-də qəbul edilmiş müvafiq proqram təminatı vasitəsilə başqa müəlliflərin yoxlama anından əvvəl internet resurslarında yerləşdirimiş işlərinə aid olan oxşar hissələrin aşkarlanması prosesi.

1.4.4. Operator – UNEC-in struktur vahidində plagiat yoxlaması üzrə təyin edilmiş məsul şəxs.

1.4.5. Antiplagiat sistemi – plagiat yoxlamasının UNEC-də qəbul edilmiş proqram təminatı vasitəsilə aparılması üçün istifadə edilən rəqəmsal resurs.

1.4.6. Plagiat arayışı – antiplagiat sistemində plagiat yoxlaması zamanı avtomatik rejimdə formalaşan və yoxlamanın nəticələrini əks etdirən hesabat.

1.4.7. 1-ci oxşarlıq əmsalı – işdə aşkar edilən və həcmi 5 ardıcıl sözdən ibarət olan oxşar hissələrin ümumi miqdarının (işarə sayı ilə) işin ümumi həcmində (işarə sayı ilə) payı (%-lə). Bu əmsalın tətbiqinin məqsədi işdə qanun, ədəbiyyat, təşkilat, anlayış, qayda, təlimat və digər sənədlərin adlarından, başqa müəlliflərin əsərlərindən, eləcə də aidiyyəti elm sahəsi üzrə standart ifadələrdən istifadə səviyyəsini müəyyən etmək və məhdudlaşdırmaqdan ibarətdir.

1.4.8. 2-ci oxşarlıq əmsalı - işdə aşkar edilən və həcmi 20 ardıcıl sözdən ibarət olan oxşar hissələrin ümumi miqdarının (işarə sayı ilə) işin ümumi həcmində (işarə sayı ilə) payı (%-lə). Bu əmsal işdə iri həcmli oxşar hissələrin həcminin müəyyən edilməsi və məhdudlaşdırılması üçün istifadə edilir. İşin mətnində başqa müəlliflərə məxsus olan və 20 ardıcıl sözdən ibarət olan hissələrin qismən (bir neçə söz əlavə etmək və ya çıxarmaq, digər üsullar) dəyişdirilməsi halları proqram təminatı tərəfindən aşkarlanır və bu hissələr 2-ci əmsalın hesablanması üçün qəbul edilir. İşdə 20 ardıcıl sözdən ibarət olan oxşar hissələr istinadın göstərilməsindən asılı olmayaraq bu əmsalın hesablanmasında istifadə edilir.

~~1.4.9. 3-cü oxşarlıq əmsalı - işdə aşkar edilən birbaşa istinadların, dırnaq işarəsi ("__") içində qeyd edilən anlayışların və ifadələrin ümumi miqdarının (işarə sayı ilə) işin ümumi həcmində (işarə sayı ilə) payı (%-lə). Bu əmsal işdə dırnaq işarəsi içində yazılmalı olan birbaşa istinadların (başqa müəlliflərin materiallarından olduğu kimi istifadə), anlayış və ifadələrin həcminin müəyyən edilməsi və məhdudlaşdırılması üçün istifadə olunur.~~

1.4.9. 3-cü oxşarlıq əmsalı - işdə dırnaq işarəsi ("...") içində yazılmış bütün hissələrin (istinadlar, anlayışlar, terminlər, adlar və digər ifadələr) həcminin işin ümumi həcmində payı (%-lə). Bu əmsal işdə dırnaq içində yazılan istinadlardan, anlayışlardan və digər ifadələrdən istifadəni məhdudlaşdırmaq üçün istifadə olunur. Dırnaq işarəsi içində yazılmış və oxşar hissə kimi aşkarlanmış mətnin həcmi 5 ardıcıl söz olan hissədən (və ya hissələrdən) ibarət olduqda, onun həcmi 1-ci əmsalın, həcmi 20 ardıcıl söz olan hissədən (və ya hissələrdən) ibarət olan oxşar mətnlər isə 2-ci əmsalın hesablanmasında da istifadə edilir.

1.4.10. Manipulyasiya – plagiat yoxlamasına təqdim edilən işin mətnində görünməz (ağ) işarələrdən istifadə, hərf dəyişikliyi, mikroboşluqlar, əlavə intervallar, parafrazlar və digər üsullardan istifadə etməklə plagiat hallarının gizlədilməsi cəhdi.

1.4.11. Hərf dəyişikliyi hərflərin fərqli şriftlərlə və yaxud fərqli əlifbalarla yazılmasıdır. Bu zaman rum rəqəmləri, riyazi ifadələrdə, qrafiklərdə, sxem və cədvəllərdə istifadə edilən xüsusi işarələr, mətnin əsas şriftindən fərqli şriftlərlə yazılması tələb olunan ifadələr (latın və yaxud digər dillərdə) manipulyasiya halı hesab olunmur.

1.4.12. Parafraz – işin mətnində başqa müəlliflərə məxsus olan materialların qismən (bir neçə söz əlavə etmək və ya çıxarmaq, digər üsullar) dəyişdirilməsi yolu ilə plagiat halının gizlədilməsi cəhdi.

1.5. UNEC-də hazırlanan və plagiat yoxlamasından keçirilməli olan iş növləri UNEC rektorunun əmri ilə təsdiq edilir. Kənar təşkilatlarda hazırlanan, amma UNEC-də müdafiə edilən və yaxud nəşr edilən işlər də plagiat yoxlamasından keçirilməlidir.

1.6. UNEC-də qəbul edilmiş proqram təminatı vasitəsilə aparılan plagiat yoxlamasının nəticələrini əks etdirən plagiat arayışı işdə elmi plagiat hallarının mövcudluğunun müəyyən edilməsi üçün əsas sənəddir.

1.7. UNEC-də təhsil alan şəxslərin və UNEC-in əməkdaşlarının təqdim etdikləri, eləcə də kənar təşkilatlarda hazırlanan, amma UNEC-də müdafiə edilən və yaxud nəşr edilən işlər üçün təyin olunmuş ilk plagiat yoxlaması UNEC-in hesabına aparılır. Təkrar yoxlamalara zərurət yarandığı halda plagiat yoxlaması üzrə xərclər müəllif (və ya müəlliflər) tərəfindən ödənilir.

1.8. Plagiat yoxlaması üzrə bütün yazışmalar tələbələrin, UNEC əməkdaşlarının, operatorların və UNEC-in digər məsul şəxslərinin korporativ emailləri vasitəsilə həyata keçirilməsi tövsiyə olunur.

1.9. İnternet resurslarının dinamikliyi, işin plagiat yoxlamasına verildiyi anda resursların texniki baxımdan əlçatanlığı və digər texniki səbəblərdən eyni işin təkrar yoxlanması zamanı eyni nəticələrin alınmasına zəmanət verilmir. Buna görə də, müəllif (müəlliflər) hər plagiat yoxlaması zamanı aşkar olunan və başqa müəlliflərə mənsub olan oxşar hissələrə görə məsuliyyət daşıyır.

1.10. Elmi plagiatın müəyyən edilməsi üçün bu Qaydalarla müəyyən edilən meyarların tərkibi və həmin meyarlar üzrə həddlər yalnız universitetin Elmi Şurasının qərarı ilə dəyişdirilə bilər.

1.11. Aşağıda qeyd edilən şəxslər işin plagiat yoxlamasından keçirilən məzmunu ilə nəşr edilən və ya müdafiə edilən məzmunu arasında eyniliyin təmin edilməsinə görə məsuliyyət daşıyırlar:

1.11.1. tədris vəsaitləri və monoqrafiyalar üzrə - müəlliflər, aidiyyəti kafedranın, fakültə və ya mərkəzin, eləcə də Tədris-metodiki Şuranın rəhbəri;

1.11.2. tələbə işləri üzrə - müəllif, qiymətləndirən şəxs, elmi rəhbər, aidiyyəti kafedranın müdiri, buraxılış işləri və magistr dissertasiyalarının müdafiəsi üçün yaradılmış Şuraların sədri və katibi;

1.11.3. fəlsəfə və elmlər doktorluğu dissertasiyaları, eləcə də məqalələr üzrə - müəllif, elmi rəhbər və ya elmi məsləhətçi, ilkin müzakirənin təşkilində iştirak edən struktur vahidlərin (kafedra, şöbə, bölmə, laboratoriya, mərkəz və s.) rəhbərləri, Dissertasiya Şurasının sədri ~~və elmi katibi~~ , elmi katibi və rəsmi opponentləri, jurnalın redaksiya heyətinin rəhbərliyi.

## II. Plagiat yoxlamasının aparılması prosedurları

2.1. Tələbə işlərinin plagiat yoxlaması iki formada – operatorun iştirakı ilə və yaxud tələbənin özü tərəfindən aparıla bilər.

2.1.1. Operatorun iştirakı ilə aparılan plagiat yoxlamaları aşağıdakı kimi təşkil olunur:

2.1.1.1. Tələbə manipulyasiya hallarına yol vermədən işin elektron versiyasını (Word faylında) UNEC-də qəbul edilmiş müvafiq qaydaların tələblərinə tam riayət etməklə tərtib edir.

2.1.1.2. Tələbə işin elektron versiyasını (Word faylında) özünün UNEC domenində mövcud olan korporativ email ünvanından müvafiq qaydalarla müəyyən edilmiş vaxt ərzində qiymətləndirən şəxsin (fənn müəllimi, buraxılış işinin rəhbəri, magistr dissertasiyasının elmi rəhbəri və s.) korporativ email ünvanına göndərir.

2.1.1.3. Qiymətləndirən şəxs işin UNEC-də tətbiq edilən aidiyyəti qaydaların tələblərinə cavab verməsi səviyyəsini yoxlayır, nöqsanlar aşkar etdikdə bu barədə tələbəyə yazılı məlumat göndərir və nöqsanların aradan qaldırılması üçün vaxt təyin edir. İşin tərtibində qaydaların tələblərinə uyğunsuzluğun aşkarlanması işin qiymətləndirmə prosesinin növbəti mərhələsinə buraxılmaması üçün əsasdır. Qiymətləndirən şəxs qaydalara uyğun tərtib edilmiş işi operatora göndərir və bu işin məzmununda olan uyğunsuzluqlara görə məsuliyyət daşıyır.

2.1.1.4. Operator qiymətləndirən şəxs tərəfindən göndərilən işi plagiat yoxlaması üçün antiplagiat sisteminə yükləyir.

2.1.1.5. Operator plagiat arayışını (yoxlama üzrə qısa və tam hesabatın pdf formasını) müəllifə, qiymətləndirən şəxsə, tələbənin təhsil aldığı fakültənin, məktəbin və ya mərkəzin katibliyinin rəhbərinə göndərir.

2.1.2. Plagiat yoxlamasının aparıldığı plarformada işin tələbənin özü tərəfindən yoxlanması imkanı yaradıldığı təqdirdə operatorun yoxlama prosesində iştirakı ləğv edilir. Tələbə işi baxılması üçün qiymətləndirən şəxsə göndərir və həmin şəxsdən təsdiq cavabı aldıqdan sonra işi yoxlama üçün antiplagiat sisteminə yükləyir. Tələbə və qiymətləndirən şəxs yoxlanılan işin məzmununda və tərtibində UNEC-də tətbiq edilən qaydaların pozulması hallarına görə məsuliyyət daşıyır.

2.1.3. Plagiat yoxlamasının nəticəsi bu Qaydaların 3.2.4, 3.2.5 və 3.3-cü bəndlərində göstərilmiş meyarlara görə qənaətbəxş hesab edilməyən tələbə işləri ilə bağlı qərarlar bu Qaydaların 3.6-cı bəndinə əsasən qəbul edilir.

**2.2. Fəlsəfə və elmlər doktoru dissertasiyalarının plagiat yoxlaması aşağıdakı qaydada aparılır:**

2.2.1. Fəlsəfə və elmlər doktoru dissertasiyalarının plagiat yoxlaması iki formada – operatorun iştirakı ilə və yaxud doktorantın özü tərəfindən aparıla bilər.

2.2.1.1 Operatorun iştirakı ilə aparılan plagiat yoxlamaları aşağıdakı kimi təşkil olunur:

2.2.1.2. Doktorantın (dissertantın) dissertasiyanın ilkin müzakirəsinin təşkil edilməsi barədə UNEC rektoruna müraciət etdiyi tarixdən sonrakı 5 iş günü ərzində dissertasiyanın elektron

versiyasını (Word faylında) doktorantura şöbəsi üzrə operatora göndərir, dissertasiyanın özü və elmi rəhbəri tərəfindən imzalanan cildlənmiş nüsxəsini isə UNEC-in doktorantura şöbəsinə şəxsən təqdim edir.

2.2.1.3. Operator fərdi iş planını tam yerinə yetirmiş doktorantın təqdim etdiyi elektron versiya ilə dissertasiyanın cildlənmiş nüsxəsinin eyniliyini yoxladıqdan sonra onu 2 iş günü ərzində plagiat yoxlamasından keçirilməsi üçün sistemə yükləyir və alınan plagiat arayışını bir məktubla müəllifə, elmi rəhbərə və Doktorantura şöbəsinin müdirinə göndərir.

2.2.2. Plagiat yoxlamasının aparıldığı platformada işin doktorantın özü tərəfindən yoxlanması imkanı yaradıldığı təqdirdə operatorun yoxlama prosesində iştirakı ləğv edilir. Doktorant işi baxılması üçün elmi rəhbərə göndərir və təsdiq cavabı aldıqdan sonra işi yoxlama üçün antiplagiat sisteminə yükləyir. Doktorant və elmi rəhbər (və ya elmi məsləhətçi) yoxlanılan işin məzmununda və tərtibində müvafiq qaydaların pozulması hallarına görə məsuliyyət daşıyır. Antiplagiat sistemi üzrə məsul şəxs plagiat arayışını müvafiq fakültə, məktəb və ya mərkəzin katibliyinə göndərir.

2.2.3. Plagiat yoxlamasının nəticəsi bu Qaydaların 3.2.5 və 3.3-cü bəndlərində göstərilmiş meyarlara görə qənaətbəxş hesab edilməyən dissertasiya barədə qərarlar bu Qaydaların 3.8-ci bəndinə əsasən qəbul edilir.

***2.3. Monoqrafiya və tədris vəsaitlərinin plagiat yoxlamasından keçirilməsi aşağıdakı qaydada həyata keçirilir:***

2.3.1. Monoqrafiyanın və ya tədris vəsaitinin kafedrada, fakültə və ya mərkəzin elmi şurasında müzakirəsi aparılır, işin nəşri məqsədəmüvafiq hesab edildiyi halda fakültə və ya mərkəzin rəhbərinin təqdimatı ilə plagiat yoxlamasının keçirilməsi üçün BMDM-ə göndərilir (təqdimata kafedranın, fakültə və ya mərkəzin elmi şurasının iclaslarının protokollarından çıxarışlar və işin word faylında elektron versiyası əlavə edilir).

2.3.2. Doktorantura şöbəsi üzrə operator işin elektron versiyası daxil olduqdan sonrakı 3 iş günü ərzində işi sistemə yükləyir, alınan plagiat arayışını (tam hesabatın pdf formasını) müəlliflərə, kafedranın, fakültənin və ya mərkəzin rəhbərinə və UNEC-in Tədris-metodiki Şurasının katibinə göndərir.

2.3.3. Plagiat yoxlamasının nəticəsi bu Qaydaların 3.2 və 3.3-cü bəndlərində göstərilmiş meyarlara görə qənaətbəxş hesab edilməyən iş barədə qərar bu Qaydaların 3.7-ci və 3.9-cu bəndlərinə əsasən qəbul edilir.

***2.4. UNEC-də nəşr olunan elmi jurnallara təqdim edilən məqalələrin plagiat yoxlaması aşağıdakı qaydada keçirilir:***

2.4.1. Jurnalın baş redaktoru məqalənin word faylında elektron versiyasını müvafiq təqdimatla BMDM-ə göndərir.

2.4.2. Məqalə BMDM-ə daxil olduğu gündən sonrakı 5 iş günü ərzində jurnal üzrə operator işi sistemə yükləyir, plagiat yoxlaması üzrə tam hesabatın pdf formasını bir məktubla müəllifə və jurnalın baş redaktoruna göndərir.

2.3.3. Plagiat yoxlamasının nəticəsi bu Qaydaların 3.2.5 və 3.3-cü bəndlərində göstərilmiş meyarlara görə qənaətbəxş hesab edilməyən məqalə barədə qərar bu Qaydaların 3.9-cu bəndinə əsasən qəbul edilir.

## III. Plagiat yoxlamasının nəticələri əsasında qərarların qəbulu

3.1. İşin orijinallığının və işdə ~~elmi plagiatın~~ elmi plagiat hallarının mövcudluğunun müəyyən edilməsi üçün aşağıdakı meyarlardan istifadə olunur:

3.1.1. aşkar edilmiş oxşar hissələrdə müvafiq qaydada istinadların verilməməsi;

3.1.2. I, II və III oxşarlıq əmsalları;

3.1.3. aşkar edilmiş manipulyasiya hallarının sayı.

3.1.4. elmi işlərin giriş, nəticə və təkliflər hissəsində, eləcə də işin elmi yeniliyinin ifadə edildiyi hissələrdə oxşar hissələrin mövcudluğu.

3.2. İş üzrə I və II oxşarlıq əmsallarının yol verilən həddləri aşağıdakı kimi qəbul edilir:

3.2.1. Fənn proqramları üzrə I oxşarlıq əmsalı 40%-dən, II oxşarlıq əmsalı isə 10 %-dən çox olmamalıdır;

3.2.2. Dərsliklər üzrə I oxşarlıq əmsalı 40%-dən, II oxşarlıq əmsalı isə 15%-dən çox olmamalıdır;

3.2.3. Dərs vəsaitləri üzrə I oxşarlıq əmsalı 40%-dən, II oxşarlıq əmsalı isə 10%-dən (metodiki göstərişlər üzrə 4%-dən) çox olmamalıdır;

3.2.4. Sərbəst işlər, referatlar, kurs işləri, layihələr və digər tədris tapşırıqları, buraxılış işləri üzrə I oxşarlıq əmsalı 40%-dən, II oxşarlıq əmsalı isə 7%-dən çox olmamalıdır;

3.2.5. Magistr, fəlsəfə və elmər doktorluğu dissertasiyaları, monoqrafiyalar, elmi məqalələr, elmi-tədqiqat işləri üzrə I oxşarlıq əmsalı 40%-dən, II oxşarlıq əmsalı isə 4%-dən çox olmamalıdır;

3.2.6. İşdə III oxşarlıq əmsalı 25%-dən çox olmamalıdır.

3.3. ~~İşdə III oxşarlıq əmsalı 25%-dən~~, İşdə manipulyasiya hallarının (parafrazlar istisna olmaqla) ümumi sayı ~~isə~~ 100-dən çox olmamalıdır.

3.3.1. İşin manipulyasiya hallarının normanı aşmasına görə təkrar yoxlanması bir semestr ərzində 2 (iki) dəfə aparıla bilər (bu Qaydaların 3.6.4, 3.7.3, 3.8.3 və 3.9.3-cü bəndlərində qeyd edilən hallar istisna olmaqla). Semestr ərzində manipulyasiya hallarına görə ikinci yoxlamada da manipulyasiya hallarının sayı normadan çox olarsa, onda həmin işin üçüncü plagiat yoxlaması növbəti semestrdə aparılır.

3.3.2. İş manipulyasiya hallarının normadan çox olmasına görə təyin edilən təkrar plagiat yoxlamasına manipulyasiya halları aradan qaldırılmaqla və məzmunda dəyişiklik edilmədən təqdim edilməlidir.

3.3.3. Plagiat yoxlaması zamanı işdə manipulyasiya hallarının sayı bu Qaydaların 3.3-cü bəndində müəyyən edilmiş normadan çox, digər meyarlar üzrə isə qənaətbəxş, eləcə də bu Qaydaların 3.6.1, 3.6.3, 3.7.1, 3.8.1 və 3.9.1 bəndlərində qeyd edilən nəticələr alındıqda manipulyasiyaların aradan qaldırılması üçün müəllifə (və ya müəliflərə) azı 2 gün vaxt verilir və manipulyasiya halları aradan qaldırılmış eyni məzmunlu iş müəllif tərəfindən təkrar plagiat yoxlamasına (müəllifin hesabına) təqdim edilir. Manipulyasiya hallarına görə təkrar yoxlanılan işin məzmununda yoxlamadan əvvəlki məzmunla fərqlər (həcmindən asılı olmayaraq) aşkarlandığı halda plagiat yoxlamasının nəticəsi qeyri-qənaətbəxş hesab edilir. Təkrar yoxlamanın nəticələri işdə manipulyasiya hallarının norma çərçivəsində olduğunu göstərdiyi halda, həmin iş barəsində qərar bu Qaydaların 3.6, 3.7, 3.8 və 3.9-cu bəndlərinin müvafiq müddəaları əsasında qəbul edilir.

3.3.4. Plagiat yoxlaması zamanı bu Qaydaların 3.6.4, 3.7.3, 3.8.3 və 3.9.3-cü bəndlərində qeyd edilən nəticələr alındıqda, manipulyasiya hallarına görə təkrar yoxlama təyin olunmur.

3.3.5. Əgər işdə manipulyasiya hallarının sayı 1000-dən çox olarsa, onda plagiat sistemi üzrə məsul şəxs işdə manipulyasiya hallarını aradan qaldıraraq işi təkrar plagiat yoxlamasına verə bilər. Bu zaman işin məzmununda hər-hansı dəyişikliyə yol verilməməli, təkrar yoxlanılan işin məzmunu əvvəlki yoxlamaya təqdim edilən işin məzmunu ilə eyni olmalıdır. Əgər bu işin təkrar yoxlanması zamanı manipulyasiya halları norma çərçivəsində olduğu aşkarlanarsa, onda həmin iş barədə qərar

məsul şəxs tərəfindən aparılmış təkrar yoxlamanın digər nəticələri əsasında və bu Qaydaların müvafiq bəndlərinə uyğun olaraq qəbul edilir.

3.4. Plagiat yoxlaması zamanı bu Qaydaların ~~3.2.4 və 3.2.5-ci bəndlərində~~ 3.2 və 3.3-cü bəndlərində göstərilən bütün meyarlar üzrə qənaətbəxş nəticə əldə edildiyi, lakin aşkarlanmış oxşar hissələrdə istinadların göstərilmədiyi halda, müəllif plagiat arayışı əsasında işin müvafiq yerlərində istinadları əlavə etməli və mənbələr siyahısında müvafiq düzəlişlər aparmalıdır. Qeyd edilən düzəlişlərin tam və dəqiq aparılmasına görə müəlliflərlə yanaşı qiymətləndirən şəxs, elmi rəhbər və ya məsləhətçi, müvafiq kafedra, fakültə və ya mərkəz rəhbərləri, müvafiq Dissertasiya Şuralarının rəhbərləri, elmi katibləri, rəsmi opponentlər, məqalələr üzrə isə jurnalın redaksiya heyətinin rəhbəri məsuliyyət daşıyır.

3.5. Plagiat yoxlamasının nəticəsi bu Qaydaların 3.1, 3.2 və 3.3-cü bəndlərində göstərilmiş meyarlara görə qənaətbəxş hesab edilən işlər növbəti mərhələyə (son qiymətləndirməyə, ilkin müzakirəyə, müdafiə prosesinə, Tədris metodiki Şurada baxılmağa, nəşr haqqında qərarın qəbuluna və s.) buraxılır.

**3.6. Buraxılış işləri və magistr dissertassiyaları, sərbəst işlər, referatlar, kurs işləri, layihələr və digər tədris tapşırıqları üzrə plagiat yoxlamasının nəticələrinə görə aşağıdakı qərarlar qəbul edilir:**

3.6.1. İşin ilk plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda müəllifə zəruri düzəlişlərin edilməsi və istifadə edilmiş mənbələrə istinadların tam göstərilməsi üçün kurs işləri, referatlar, sərbəst işlər, laboratoriya işləri, layihələr və bu tipli başqa tapşırıqlar üzrə azı 5 gün, buraxılış işləri və magistr dissertasiyaları üzrə isə ~~20 gün~~ 10 gün (2-ci oxşarlıq əmsalı 10%-dən az olduqda bu müddət 5 günədək azaldıla bilər) vaxt verilir.

3.6.1.1. I oxşarlıq əmsalının qiyməti bu Qaydaların 3.2.4 və 3.2.5-ci bəndlərində müəyyən edilmiş həddən çox və 50%-dək olduqda;

3.6.1.2. II oxşarlıq əmsalının qiyməti bu Qaydaların 3.2.4 və 3.2.5-ci bəndlərində müəyyən edilmiş həddən çox və 30%-dək olduqda;

3.6.1.3.III oxşarlıq əmsalının qiyməti 25%-dən çox və 40%-dək olduqda;

~~3.6.1.4. Manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 100-dən çox və 300-dək olduqda.~~

3.6.1.~~5~~.4. İşin giriş, nəticə və təkliflər hissəsində, eləcə də işin elmi yeniliyinin ifadə edildiyi hissələrdə istinadı olmayan oxşar hissələr (qanun, təşkilat, anlayış, qayda, təlimat adları və aidiyyəti elm sahəsi üzrə standart ifadələr istisna olmaqla) olduqda

3.6.2. ~~Verilən vaxt bitdikdən sonra iş bu Qaydaların 2.1-ci bəndində müəyyən edilmiş formada təkrar plagiat yoxlamasına təqdim edilə bilər. Əgər işin ikinci plagiat yoxlanması zamanı bu Qaydaların 3.6.1-ci bəndində müəyyən edilən meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda həmin işin plagiat yoxlamasından keçirilməsi məsələsinə 6 aydan tez olmamaqla, növbəti tədris ilində semestrdə baxıla bilər. Əgər buraxılış işi və ya magistr dissertasiyasının üçüncü plagiat yoxlaması zamanı bu Qaydaların 3.6.1-ci bəndində müəyyən edilən meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda həmin işin müdafiəyə buraxılması məsələsinə baxılması dayandırılır və müəllifə həmin mövzu üzrə buraxılış işi və ya magistr dissertasiyasını müdafiə etməsinə icazə verilmir.~~

3.6.2. İşin ilk plagiat yoxlamasının nəticələri bu Qaydaların 3.6.1-ci bəndində qeyd edilən meyarlar çərçivəsində olduqda, iş həmin bənddə təyin edilmiş müddət bitdikdən sonra bu Qaydaların 2.1-ci bəndində müəyyən edilmiş formada ikinci plagiat yoxlamasına təqdim edilə bilər.

Əgər işin ikinci plagiat yoxlanması zamanı bu Qaydaların 3.2 və 3.3-cü bəndlərində müəyyən edilən meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa və 2-ci oxşarlıq əmsalı 10%-dən, 1-ci və 3-cü oxşarlıq əmsalları isə müvafiq olaraq 45% və 30%-dən çox olmazsa, onda həmin iş 5 gündən sonra üçüncü plagiat yoxlamasına təqdim edilə bilər. İkinci yoxlama zamanı aşağıdakı nəticələrdən biri alındığı halda isə buraxılış işləri 3-cü yoxlamaya ikinci yoxlamanın keçirildiyi gündən 15 gün sonra, magistr dissertasiyası isə növbəti semestrdə təqdim edilə bilər:

- I oxşarlıq əmsalı 45%-dən çox və 50%-dək;
- II oxşarlıq əmsalı 10%-dən çox və 40%-dək;
- III oxşarlıq əmsalı 30%-dən çox və 50%-dək.

Həmin işin 3-cü yoxlamasında bu Qaydaların 3.2 və 3.3-cü bəndində göstərilən oxşarlıq meyarlarından biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda tələbəyə həmin mövzuda işi müdafiə etməsinə icazə verilmir.

3.6.3. İlk plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda kurs işləri, referatlar, sərbəst işlər, laboratoriya işləri, layihələr və bu tipli başqa tapşırıqlar qeyri-kafi qiymətləndirilir, ~~buraxılış işi və magistr dissertasiyası isə müvafiq düzəlişlər edilməklə ikinci plagiat yoxlamasına 1 (bir) ildən sonra bu Qaydanın 2.1-ci bəndində müəyyən edilən formada və elmi rəhbərin rəyi ilə birlikdə təqdim edilir.~~ buraxılış işləri ikinci plagiat yoxlamasına 15 gün sonra, magistr dissertasiyaları isə növbəti semestrdə bu Qaydanın 2.1-ci bəndi ilə müəyyən edilən formada elmi rəhbərin rəyi ilə birlikdə təqdim edilir.

3.6.3.1. I oxşarlıq əmsalının qiyməti ~~50~~ 40%-dən çox və ~~60~~ 50%-dək olduqda;

3.6.3.2. II oxşarlıq əmsalının qiyməti 30%-dən çox və 40%-dək olduqda;

3.6.3.3. III oxşarlıq əmsalının qiyməti 40%-dən çox və 50%-dək olduqda;

~~3.6.3.4. manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 300-dən çox və 1000-dək olduqda;~~

~~İlk Plagiat yoxlaması zamanı Qaydaların bu bəndi ilə müəyyən edilmiş meyarlardan biri üzrə qeyri-qənaətbəxş nəticə aşkar olunan işin ikinci plagiat yoxlamasında Qaydaların 3.6.1-ci bəndində müəyyən edilmiş meyarlardan biri üzrə alındığı halda qeyri-qənaətbəxş nəticə aşkarlanarsa, onda işin müəllifinə həmin mövzuda buraxılış işinin və ya magistr dissertasiyasının müdafiə edilməsi qadağan edilir.~~

İlk plagiat yoxlamasının nəticələri bu bənddə göstərilən meyarlar çərçivəsində olan magistr dissertasiyası təkrar yoxlamaya yalnız bir dəfə verilə bilər. Həmin işin təkrar yoxlanması zamanı bu Qaydaların 3.2.5 və 3.3-cü bəndində müəyyən edilmiş meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda tələbəyə həmin mövzuda magistr dissertasiyasını müdafiə etməsinə icazə verilmir.

İlk plagiat yoxlamasının nəticələri bu bənddə göstərilən meyarlar çərçivəsində olan buraxılış işinin ikinci plagiat yoxlamasında aşağıdakı nəticələrdən biri alındığı halda həmin işin üçüncü plagiat yoxlaması növbəti semestrdə aparıla bilər.

- I oxşarlıq əmsalı 40%-dən çox və 50%-dək;
- II oxşarlıq əmsalı 15%-dən çox və 40%-dək;
- III oxşarlıq əmsalı 25%-dən çox və 50%-dək.

Həmin buraxılış işinin üçüncü plagiat yoxlaması zamanı bu Qaydaların 3.2-ci bəndində buraxılış işləri üçün müəyyən edilmiş meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda tələbəyə həmin mövzuda buraxılış işini müdafiə etməsinə icazə verilmir.

3.6.4. İstənilən plagiat yoxlaması zamanı ~~aşağıdakı nəticələr~~ aşağıdakı nəticələrdən biri alındığı halda, tələbəyə həmin mövzuda buraxılış işi və ya magistr dissertasiyasını müdafiə etməsinə icazə verilmir:

3.6.4.1. I oxşarlıq əmsalının qiyməti ~~60%~~ 50%-dən çox olduqda;

3.6.4.2. II oxşarlıq əmsalının qiyməti 40%-dən çox olduqda;

3.6.4.3. III oxşarlıq əmsalının qiyməti 50%-dən çox olduqda;

~~3.6.4.4. manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 1000-dən çox olduqda;~~

**3.7. Tədris vəsaitləri üzrə plagiat yoxlamasının nəticələrinə görə aşağıdakı qərarlar qəbul edilir:**

3.7.1. Tədris vəsaitlərinin ilk plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda müəllifə zəruri düzəlişlərin edilməsi üçün 1 (bir) ay vaxt verilir:

3.7.1.1. I oxşarlıq əmsalının qiyməti 40%-dən çox və 50%-dək olduqda;

3.7.1.2. II oxşarlıq əmsalının qiyməti bu Qaydaların 3.2.1, 3.2.2 və 3.2.3-cü bəndlərində müəyyən edilmiş həddən çox və 30%-dək olduqda;

3.7.1.3. III oxşarlıq əmsalının qiyməti 25%-dən çox və 40%-dək olduqda;

~~3.7.1.4. Manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 100-dən çox və 300-dək olduqda;~~

3.7.2. Bu Qaydaların 3.7.1-ci bəndində müəyyən edilən vaxt bitdikdən sonra tədris vəsaiti bu Qaydanın 2.3-cü bəndində müəyyən edilmiş formada təkrar plagiat yoxlamasına təqdim edilə bilər. Təkrar plagiat yoxlaması zamanı bu Qaydaların 3.7.1-ci bəndində müəyyən edilmiş meyarlardan biri üzrə qeyri-qənaətbəxş nəticənin aşkarlanması həmin tədris vəsaitinin nəşri məsələsinə bir daha baxılmaması üçün əsasdır.

3.7.3. İstənilən plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda tədris vəsaitlərinin təkrar plagiat yoxlanması aparılmır və onların nəşri məsələsinə bir daha baxılmır:

- I oxşarlıq əmsalı 50%-dən çox olduqda;
- II oxşarlıq əmsalı 30%-dən çox olduqda;
- III oxşarlıq əmsalı 40%-dən çox olduqda;
- ~~manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 300-dən çox olduqda;~~

**3.8. Fəlsəfə və elmlər doktorluğu dissertasiyaları üzrə plagiat yoxlamasının nəticələrinə görə aşağıdakı qərarlar qəbul edilir:**

3.8.1. Fəlsəfə və elmlər doktorluğu dissertasiyalarının ilk plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda müəllifə zəruri düzəlişlərin edilməsi və istifadə edilmiş mənbələrə istinadların tam göstərilməsi üçün 2 (iki) ay vaxt verilir.

3.8.1.1. I oxşarlıq əmsalının qiyməti 40%-dən çox və 50%-dək olduqda;

3.8.1.2. II oxşarlıq əmsalının qiyməti 4%-dən çox və 15%-dək olduqda;

3.8.1.3. III oxşarlıq əmsalının qiyməti 25%-dən çox və 40%-dək olduqda;

~~3.8.1.4. Manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 100-dən çox və 200-dək olduqda.~~

3.8.1.5. İşin giriş, nəticə və təkliflər hissəsində, eləcə də işin elmi yeniliyinin ifadə edildiyi hissələrdə başqa müəlliflərin işlərinə oxşar hissələr (qanun, təşkilat, anlayış, qayda, təlimat adları və aidiyyəti elm sahəsi üzrə standart ifadələr istisna olmaqla) olduqda.

3.8.2. Bu Qaydaların 3.8.1-ci bəndində müəyyən edilən vaxt bitdikdən sonra dissertasiya bu Qaydaların 2.2-ci bəndində müəyyən edilmiş formada təkrar plagiat yoxlamasına təqdim edilə bilər. Əgər işin ikinci plagiat yoxlanması zamanı bu Qaydaların 3.8.1-ci bəndində müəyyən edilən meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda həmin işin plagiat yoxlamasından

keçirilməsi məsələsinə 1 (bir) ildən tez olamamaqla baxıla bilər. Əgər üçüncü plagiat yoxlaması zamanı bu Qaydaların 3.8.1-ci bəndində göstərilən meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda yoxlanılan dissertasiya ilkin müzakirəyə buraxılmır və müəllifə həmin mövzu üzrə dissertasiyanın müdafiə edilməsinə icazə verilmir.

3.8.3. İstənilən plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda müəllifə həmin mövzuda dissertasiyanın müdafiə edilməsinə icazə verilmir:

3.8.3.1. I oxşarlıq əmsalının qiyməti 50%-dən çox olduqda;

3.8.3.2. II oxşarlıq əmsalının qiyməti 15%-dən çox olduqda;

3.8.3.3. III oxşarlıq əmsalının qiyməti 40%-dən çox olduqda;

~~3.8.3.4. Manipulyasiya hallarının sayı (parafrazlar istisna olmaqla) 200-dən çox olduqda.~~

**3.9. Monoqrafiya və elmi məqalələr üzrə plagiat yoxlamasının nəticələrinə görə aşağıdakı qərarlar qəbul edilir:**

3.9.1. Monoqrafiyanın və ya elmi məqalənin ilk plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda müəllifə (müəliflərə) zəruri düzəlişlərin edilməsi və istifadə edilmiş mənbələrə istinadların tam göstərilməsi üçün 2 (bir) ay vaxt verilir.

3.9.1.1. I oxşarlıq əmsalının qiyməti 40%-dən çox və 50%-dək olduqda;

3.9.1.2. II oxşarlıq əmsalının qiyməti 4%-dən çox və 15%-dək olduqda;

3.9.1.3. III oxşarlıq əmsalının qiyməti 25%-dən çox və 40%-dək olduqda;

~~3.9.1.4. Manipulyasiya hallarının ümumi sayı (parafrazlar istisna olmaqla) 100-dən çox və 200-dək olduqda.~~

3.9.1.5. İşin giriş, nəticə və təkliflər, elmi yeniliklər hissələrində başqa müəlliflərin işlərinə oxşar hissələr (qanun, təşkilat, anlayış, qayda, təlimat adları və aidiyyəti elm sahəsi üzrə qısa standart ifadələr istisna olmaqla) aşkarlandıqda.

3.9.2. Bu Qaydaların 3.9.1-ci bəndində müəyyən edilən vaxt bitdikdən sonra monoqrafiya bu Qaydaların 2.3-cü, elmi məqalə isə 2.4-cü bəndində müəyyən edilmiş formada təkrar plagiat yoxlamasına təqdim edilə bilər. Əgər işin ikinci plagiat yoxlaması zamanı bu Qaydaların 3.9.1-ci bəndində müəyyən edilmiş meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda həmin işin təkrar plagiat yoxlamasından keçirilməsi məsələsinə 1 (bir) ildən tez olamamaqla baxıla bilər. Əgər üçüncü plagiat yoxlaması zamanı bu Qaydaların 3.9.1-ci bəndində müəyyən edilmiş meyarlardan biri üzrə qənaətbəxş nəticə alınmazsa, onda həmin işin nəşri məsələsinə bir daha baxılmır.

3.9.3. İstənilən plagiat yoxlaması zamanı aşağıdakı nəticələrdən biri alındığı halda, yoxlanılan monoqrafiaynın və ya elmi məqalənin nəşri məsələsinə bir daha baxılmır:

3.9.3.1. I oxşarlıq əmsalının qiyməti 50%-dən çox olduqda;

3.9.3.2. II oxşarlıq əmsalının qiyməti 15%-dən çox olduqda;

3.9.3.3. III oxşarlıq əmsalının qiyməti 40%-dən çox olduqda;

~~3.9.3.4. Manipulyasiya hallarının sayı (parafrazlar istisna olmaqla) 200-dən çox olduqda.~~

## IV. Plagiat yoxlamasının nəticələri barədə mübahisələrə baxılması

4.1. Buraxılış işləri, magistr dissertasiyaları, fəlsəfə və elmlər doktoru dissertasiyalarının, eləcə də tədris vəsaitlərinin plagiat yoxlamaları üzrə mübahisəli məsələlərə baxılması üçün UNEC rektorunun əmri ilə Plagiat komissiyası yaradılır. Komissiyanın tərkibi ən azı beş nəfərdən ibarət olmalıdır. Komissiyanın tərkibinə UNEC-in aparıcı əməkdaşları ilə yanaşı kənar təşkilatlarda çalışan və bu sahədə təcrübəsi olan mütəxəssislər də daxil edilə bilər.

4.2. Sərbəst iş, referat, kurs işi və tədris fənləri çərçivəsində istifadə edilən digər işlərin plagiat yoxlamaları üzrə mübahisəli məsələlərə fakültə, mərkəz və ya məktəblərin Elmi Şuraları

tərəfindən yaradılan və tərkbində elmi dərəcəli şəxslər olan (3 nəfərdən az olmamaqla) komissiyalarda baxılır.

4.3. Komissiyaların qərarları səsvermə you ilə və sadə səs çoxluğu əsasında qəbul edilir. Komissiyalar qərarların qəbulunda bu Qaydalarla və digər normativ-hüquqi aktlarla müəyyən edilən müddəalara əsaslanır.

4.3. Müəllif plagiat yoxlamasının nəticəsindən narazı qaldığı halda, komissiyaya bu narazılıq üzə əsaslandırma ilə müraciət edə bilər. Narazılığın əsaslandırılmasında plagiat arayışının düzgün hesab edilməyən konkret müddəaları qeyd edilməli və hər müddəa üzrə narazılığın konkret əsasları göstərilməlidir. Komissiya belə əsaslandırması olmayan müraciətlərə baxmaqdan imtina edə bilər.

4.4. Komissiya plagiat yoxlaması nəticəsində alınan oxşarlıq əmsallarının dəqiqləşdirilməsi zamanı müvafiq meyarların müəyyən edilməsində müəllifin öz əsərlərinə aid olan hissələri elmi plagiat halı kimi qəbul etməyə bilər.

4.5. Manipulyasiya hallarının sayının müəyyən edilməsi zamanı mətndə, riyazi ifadələrdə, qrafiklərdə, sxem və cədvəllərdə istifadə edilən rum rəqəmləri, xüsusi işarələr, mətnin əsas şriftindən fərqli şriftlərlə yazılması tələb olunan ifadələr (latın və yaxud digər dillərdə) və digər zəruri hallar nəzərə alına bilər.

4.6. Komissiya işdə əvvəlki dövrələrdə nəşr olunan, lakin internet resurslarında yerləşdirilməyən əsərlərə aid oxşar hissələrin olmasına dair müraciətlərə də baxa bilər. Bu halda baxılan iş üzrə qərarlar bu Qaydalarla müəyyən edilən müddəalar əsasında qəbul edilir.

4.7. Komissiya plagiat yoxlamasının nəticəsi üzrə qərarını protokolla rəsmiləşdirir, həmin protokolu antiplagiat sistemində formalaşan hesabatla (pdf formatda, kağız daşıyıcıda və s.) birgə, işin növbəti mərhələdə baxılması barədə qərarı qəbul edən qurumun rəhbərinə və baxılan işin müəllifinə təqdim edir.